DOI: https://doi.org/10.36719/2706-6185/34/99-104

**Müşviq Mehbalıyev**
Bakı Mühəndislik Universiteti
mmehbaliyev@beu.edu.az

# İRANIN NÜVƏ BÖHRANININ HƏLLİ CƏHDLƏRİ

**Xülasə**

Məqalədə İranın nüvə böhranının həllinə yönəlmiş fəaliyyətinin əsas inkişaf mərhələləri nəzərdən keçirilir. Müəllif İran ətrafında yaranmış nüvə böhranının əsas məqamlarına aydınlıq gətirir. İranın beynəlxalq münasibətlərin aktorları ilə münasibətlərində son onilliklərdə böhranı kontekstində baş verən dəyişikliklərə xüsusi diqqət yetirilir.

***Açar sözlər:*** *İran, nüvə böhranı, təhlükəsizlik, ABŞ, Qərb*

**Mushvig Mehbaliyev**
Baku Engineering University
mmehbaliyev@beu.edu.az

## Attempts to resolve the Iranian nuclear crisis

**Abstract**

The article examines the main stages in the development of activities to resolve the nuclear crisis of Iran. The author highlighted the main points of the nuclear crisis around Iran. Particular attention is paid to changes in Iran's relations with participants in international relations in the context of the nuclear crisis in recent decades.

***Keywords:*** *Iran, nuclear crisis, security, USA, West*

## Giriş

İranın nüvə böhranının həlli bir sıra ilkin şərtlər, hər şeydən əvvəl, danışıqlar prosesində tərəflərin razılığa gəlməsində qeyd-şərtsiz maraqlı olması ilə bağlıdır.

Beynəlxalq ictimaiyyətin Tehrana qarşı tətbiq etdiyi sanksiyalar, xüsusən də birtərəfli Amerika və Avropa sanksiyaları ölkə iqtisadiyyatına ağır zərbə vurdu. Qadağanedici tədbirlərin həyata keçirilməsinin İran üçün əsas nəticələri aşağıdakılardan ibarətdir:

1. Ticarət sahəsindəki məhdudiyyətlər səbəbindən xarici tərəfdaşlarla ticarət həcminin azalması
2. Müvafiq qadağalar səbəbindən investisiya həcmində azalma.
3. Neft embarqosu, tranzit qadağaları, 2012-ci ildə İranın SWIFT sistemindən çıxarılması, neft tankerlərinin sığortasının və təkrar sığortasının qadağan edilməsi səbəbindən neft, qaz və digər məhsulların satışından əldə olunan gəlirlərin azalması.
4. Müvafiq qadağalar səbəbindən İran təyyarə parkı daxil olmaqla, texniki vasitələrin, habelə silahlı qüvvələrin texnoloji strukturunun köhnəlməsi.

2011-2014-cü illər ərzində sanksiyaların təsiri nəticəsində İranın ÜDM-də 592 milyard dollardan 425 milyard dollara qədər əhəmiyyətli azalma baş verdi (1). Həmin dövrdə neft hasilatının həcmi gündəlik 3,5 milyon barreldən 3,1 milyon barrelə, ixrac isə gündəlik 2,25 milyon barreldən 1,1 milyon barrelə düşdü (2). Ölkə iqtisadiyyatında daim pisləşən vəziyyət siyasi kursda dəyişiklik və nüvə böhranından çıxış yolu üçün “aşağıdan tələb” yaratdı ki, bu da 2013-cü ilin iyun ayında keçirilən prezident seçkilərində H.Ruhaninin qələbəsini təmin etdi.

V.İ.Sajin Ruhaninin namizədliyinin yuxarıdan Ayətullah Xameneyi tərəfindən təsdiqləndiyini vurğulayır. Bu qərar ondan irəli gəlirdi ki, Həsən Ruhani “İranın nüvə problemi ilə bağlı idi və liberal-islahatçı qanadı təmsil edirdi”, yəni o, “Qərblə dialoq apara biləcək” şəxs idi (3).

“Altılıq”da təmsil olunan Avropa ölkələri, Böyük Britaniya, Almaniya və Fransa, ilk növbədə, öz iqtisadi maraqlarını güdürdülər. ABŞ-ın 2010 və 2012-ci il Aktlarına uyğun olaraq, İranla bir sıra

sahələrdə birgə fəaliyyət göstərən xarici rezidentlərə (fiziki və hüquqi şəxslərə) qarşı sanksiyaların tətbiqi nəzərdə tutulurdu. Məhz bu qərar investisiyaların kəskin azalmasına, ixracat və idxalatın azalmasına və İranın SWIFT-dən ayrılmasına səbəb oldu. Buna görə də avropalılar İran bazarına qayıtmaq üçün böhranın tezliklə həllinə çalışırdılar.

İran neftinin ən böyük idxalçısı olan və hazırda ölkənin enerji təhlükəsizliyini təmin etmək üçün enerji tədarükünün şaxələndirilməsi siyasətini davam etdirən Çin İranla qarşılıqlı fəaliyyətdəki məhdudiyyətlərin aradan qaldırılmasında son dərəcə maraqlı idi (27). Oslodakı Sülh Araşdırmaları İnstitutunun professoru Pavel Bayev tərəfindən qeyd olunduğu kimi, məhz Çin faktoru təcrid vəziyyətində Pekinlə işbirliyində maraqlı olan Rusiyanın nüvə məsələsi ilə bağlı danışıqlar prosesində fəal iştirakına təsir göstərmişdi (17). Bu bir daha Pekinin böhranın həlli üçün göstərdiyi səylərin əhəmiyyətini nümayiş etdirir.

ABŞ üçün İran probleminin həlli nüvə silahının yayılmaması rejimini gücləndirməyə və bölgədəki qüvvələr nisbətini yenidən formalaşdırmağa imkan yaradardı (Arbatov, Sazhin, 2015). ABŞ-ın İranın raket proqramının davam etməsindən narazılığı təsadüfi deyil. Amerika tərəfi ballistik raket proqramının tammiqyaslı dayandırılmasına ümid bəsləyirdi, lakin H.Ruhaninin dediyi kimi "Tehranın nüvə başlıqları ilə təchiz olunması nəzərdə tutulmayan raketlər hazırlamaq hüququ var" (8). Bundan əlavə, İran üzrə aparıcı mütəxəssislərdən biri olan V.Sajinin dediyinə görə, B.Obama "Səudiyyə Ərəbistanı, İsrail və İran arasında balans" qurulmasında, İranla münasibətləri yaxşılaşdırmaqda maraqlı idi (11).

Nüvə silahının yayılmaması rejiminin gücləndirilməsi yolu ilə təhlükəsizliyin təmin edilməsi mövqeyindən çıxış edən Rusiya da İranın nüvə proqramı ilə bağlı danışıqlar prosesində strateji məqsədlər güdürdü. Hər şeydən əvvəl, Moskva Yaxın Şərq bölgəsindəki mövqelərini gücləndirməkdə, Qərbin regiondakı təsirini azaltmaqda maraqlı idi, bu da İranın dinc nüvə texnologiyalarına sahib olmaq və inkişaf etdirmək hüququnun ardıcıl müdafiəsində, sanksiyaların qəbul edilməsinə balanslı yanaşmada (sərt məhdudiyyətlərin tətbiqinə mane olmaqda) əksini tapdı (24). Eyni zamanda, danışıqlar çərçivəsində regional müttəfiqi kimi Tehranı dəstəkləyərkən, Rusiya tərəfi ABŞ ilə münasibətlərdə "İran kartı"nı oynayır, Vaşinqtonu İranın nüvə probleminin müzakirəsi yolu ilə NATO-nun Şərqə genişlənməsi, raket əleyhinə müdafiə sisteminin yerləşdirilməsi, ABŞ-ın nüfuzunun Rusiyaya qonşu dövlətlərə yayılması kimi məsələləri həll etməyə sövq edirdi (21). Bundan əlavə, ABŞ-ın danışıqlar masasında mümkün variant kimi qəbul etdiyi İran məsələsinin həlli üçün hərbi ssenarinin qarşısını almaq da həssas bir bölgədə vəziyyətin nəzarət altından çıxmasının qarşısını almaq baxımından Rusiya Federasiyasının milli maraqlarına cavab verir. Onu da qeyd etmək lazımdır ki, Əhmədinejadın prezidentliyi dövründə "altılıq" formatındakı dialoqdakı müəyyən problemlərə baxmayaraq məhz Rusiya diplomatiyasının səyləri sayəsində danışıqlar prosesi qorunub saxlanıldı. Bu kontekstdə xüsusən 2012-2013-cü illərdə Rusiyanın təşəbbüsü ilə Bağdad, Moskva, İstanbul və Almatıda. görüşlər reallaşdı (Gurova, 2015).

Həm İran, həm də Rusiya tərəfindən ənənəvi olaraq müttəfiq kimi qəbul edilən Suriyadakı vətəndaş müharibəsi çərçivəsində hərbi əməliyyatlar, terror qruplaşmalarının (xüsusən də İŞİD-in) fəallaşması fonunda İranın bölgədəki rolunun artması razılaşmanın əldə edilməsinə kömək edən geosiyasi amil kimi çıxış etdi. İranın bu son dərəcə ciddi təhdidlərə qarşı mübarizədə oynaya biləcəyi konstruktiv rolun beynəlxalq birlik tərəfindən dərki də danışıqların nəticələrinə təsir göstərdi. Xüsusilə Barak Obamanın İranı İŞİD-lə mübarizəyə cəlb etməkdə maraqlı olduğu bilinirdi ki, bu da onun Ayətullah Xameneyiyə məktubunda ifadə olunmuşdu (22). İran da öz növbəsində antiterror koalisiyasında iştirak ehtimalını danışıqlar prosesi ilə əlaqələndirirdi (4).

Beləliklə, bütün bu amillərin təsiri altında bir sıra danışıqlar nəticəsində 14 iyul 2015-ci ildə "altılıq" və İran tərəfinin nümayəndələri Birgə Hərtərəfli Fəaliyyət Planı (BHFP) imzaladılar ki, bu da İranın nüvə probleminin çoxillik həlli prosesinin məntiqi nəticəsi oldu. Qəbul edilmiş plan, İranın nüvə proqramının müstəsna dinc mahiyyətinin təmin edilməsinə yönəlmişdi, Tehran bu sahədə BHFP müddəalarına uyğun olaraq, BAEA ilə sıx əlaqədə, habelə "Altılıq" və İran tərəfindən yaradılan Birgə Komissiya çərçivəsində hərəkət etmək barədə öhdəlik götürmüşdü. BHFP nüvə proqramı ilə əlaqədar İrana BMT Təhlükəsizlik Şurasının tətbiq etdiyi sanksiyaların,

çoxtərəfli və milli sanksiyaların ləğvini də əhatə edirdi. “Altılıq” üzvlərinin götürdüyü öhdəliklər İrana ticarət, maliyyə, texnologiya sahələrində fəaliyyət imkanı verilməsini, “şər oxu” dövlətinin perspektivli tərəfdaşa çevrilməsini nəzərdə tuturdu.

BHFP, əsasən, aşağıdakıları nəzərdə tuturdu (13):

1. İranın uranın zənginləşdirilməsi ilə bağlı fəaliyyətinin 8 il müddətinə məhdudlaşdırılması və sonradan tədricən müstəsna surətdə dinc məqsədlər üçün zənginləşdirməyə keçid.
2. Natanzdakı obyektdə zənginləşdirmə gücünün məhdudlaşdırılması; Fordu müəssisəsində zənginləşdirmə işlərinin aparılmasının, hər hansı bir nüvə materialının yerləşdirilməsinin qadağan edilməsi.
3. Uranı zənginləşdirmə limitinin 3,67% səviyyəsində müəyyən edilməsi.
4. Zənginləşdirilmiş uranı saxlama həcmlərinin məhdudlaşdırılması.
5. İstifadə olunmuş nüvə yanacağının İran ərazisindən çıxarılması.
6. Sentrifuqaların və zənginləşdirmə ilə bağlı texnologiyaların çıxarılması daxil olmaqla infrastruktur dəyişiklikləri yolu ilə Fordudakı obyektin nüvə, fiziki və texnoloji mərkəzə çevrilməsi.
7. Beynəlxalq tərəfdaşlıq vasitəsilə Arakdakı ağır su tədqiqat reaktorunun tibbi və sənaye məqsədləri üçün radioizotoplar istehsalı mərkəzinə çevrilməsi.
8. İstifadə olunmuş nüvə yanacağının emalı sahəsində fəaliyyətin qadağan edilməsi.
9. Şəffaflıq rejimi təmin edilməklə İranın BAEA ilə əməkdaşlığı.
10. İranın nüvə partlayıcı qurğular yaratmaq cəhdlərindən imtina etməsi.
11. Beynəlxalq sanksiyaların ləğvi.

İcra Planına (Sazişə V Əlavə (7)) uyğun olaraq, BHFP-nın həyata keçirilməsi ikinci icra mərhələsində “Qəbul günü”ndə - BHFP BMT Təhlükəsizlik Şurası tərəfindən təsdiqləndikdən 90 gün sonra başlanmalı idi. 20 iyul 2015-ci ildə BMT Təhlükəsizlik Şurası BHFP-nı dəstəkləyən 2231 saylı qətnaməni (9) qəbul etdi, 18 oktyabr 2015-ci ildə BHFP ilə nəzərdə tutulan saziş tərəflərinin öhdəliklərinin icrası tədbirlərinin həyata keçirilməsinə başlanıldı (14).

Belə ki, İran ilkin qaydada Əlavə Protokolu tətbiq etməyə və nüvə obyektlərinin inşası planları barədə BAEA-nın əvvəlcədən məlumatlandırılmasını nəzərdə tutan təkmilləşdirilmiş 3.1. Koduna uyğun hərəkət etməyə başladı. AB və ABŞ İranın öz öhdəliklərini yerinə yetirdiyinin BAEA tərəfindən təsdiqlənməsi ilə başlanan BHFP icrasının üçüncü mərhələsində qüvvəyə minən İranın nüvə proqramı ilə bağlı iqtisadi və maliyyə sanksiyalarına xitam verən qərarlar qəbul edirlər. BMT Təhlükəsizlik Şurasının Tehrana qarşı sanksiyalar tətbiq edən qətnamələrinin ləğvi də həmin eyni anda baş verməli idi.

16 yanvar 2016-cı ildə başlanan “İcra Günü”ndə BAEA Baş Katibi Yukiya Amano İranın BHFP-nın həyata keçirilməsi üçün bütün lazımi hazırlıqları başa çatdırdığını təsdiqləyən hesabat təqdim etdi və planın icrasının üçüncü mərhələsi başlandı (Kozhanov, 2012). BMT Təhlükəsizlik Şurasının 2231 saylı qətnaməsinə uyğun olaraq, bir sıra məhdudiyyətlər saxlanmaqla sanksiyalar rejimi ləğv edildi. Tehrana silahların, o cümlədən hərbi texnikanın göndərilməsinin mümkünlüyü ilə bağlı məsələ geniş açıqlandı. 2231 saylı qətnamə BMT Təhlükəsizlik Şurasında müvafiq qərarın dəstəklənməsini nəzərdə tutmaqla 2020-ci ilədək dövr üçün tədarükün icazə prosedurunu müəyyənləşdirdi. Xarici KİV-in yuxarıda göstərilən qətnamənin müddəalarının yanlış təfsiri ilə bağlı açıqlamalarını şərh edən Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi M.V.Zaxarova qeyd etdi ki, BMT Təhlükəsizlik Şurasına üzv olan, belə bir hüquqa malik dövlətlərin tədarük barədə qərara veto qoyması halında “onlar ... xüsusən də Yaxın Şərqdə terrorizmlə mübarizə şəraitində dövlətin qanuni özünümüdafiə hüququnun həyata keçirilməsinə niyə mane olduqlarını izah etməlidirlər” (6).

İrana qarşı sanksiyaların götürülməsindən qısa müddət sonra bir sıra hüquq firmaları AB və ABŞ-ın İrana qarşı siyasətindəki əsas dəyişikliklərlə bağlı analitik hesabatlarını dərc etdirdilər. Məsələn, 19 yanvar 2016-cı ildə Danimarkanın “De Brauw Blackstone Westbroek” şirkəti İranın nüvə fəaliyyəti ilə bağlı bəzi milli sanksiyaların qüvvədə qaldığı və insan haqlarının vəziyyəti səbəbilə Tehrana tətbiq olunan sanksiyalara toxunulmadığı barədə hüquqi xəbərdarlıq yayımladı.

Məruzədə sanksiyaların qaldırılmasından bəri ən mühüm dəyişikliklərin ümumi xülasəsi verilirdi. AB tərəfindən xam neft, qaz və əlaqədar məhsulların alınması, idxalı və daşınması qadağası ləğv edilmişdi; sənayenin neft, neft-kimya və qaz sektorlarındakı İran müəssisələri ilə investisiya, maliyyələşdirmə və əməkdaşlıq məhdudiyyətləri aradan qaldırılmışdı. Amerika Birləşmiş Ştatları tərəfindən, Xüsusi təyin olunmuş Xarici Vətəndaşların Siyahısında qalanlar istisna olmaqla, əsasən Amerikadan kənar rezidentlər (hüquqi və fiziki şəxslər) sanksiyalardan azad edilmişdi (26). STEP konsaltinq agentliyində qeyd edildiyi kimi, İran hökuməti bu siyahıda qalmışdı (23). Bir həftə sonra Amerikanın "Ropes & Grey" hüquq şirkəti müvafiq hesabat yayımladı. Hesabata görə, İrana sərnişin təyyarələrinin, habelə sərnişin hava nəqliyyatında istifadə üçün ehtiyat hissələri və texnologiyaların ixracı, İrandan yerli istehsallı xalçaların və ərzaq məhsullarının idxalı qadağasının qaldırılması istisna olmaqla ABŞ tərəfindən sanksiya rejimində ciddi dəyişiklik edilməmişdi. Bu günə qədər ABŞ İrana qarşı əksər malların, məhsulların və texnologiyaların ixracını və idxalını qadağan etməkdədir. AB İrana qarşı nüvə proqramı ilə bağlı bütün sanksiyaları ləğv etmişdi. Dəyişikliklər müvafiq sənəddə - "Şuranın Qərarı 2016/37 / CFSP"də göstərilmişdi (25). Onu da qeyd etmək lazımdır ki, AB və ABŞ-ın İranla hərbi-sənaye kompleksində əməkdaşlıq barədə qadağaları bu günə qədər qüvvədə qalır. Daha əvvəl də qeyd edildiyi kimi, İranın ballistik raket proqramının məhdudlaşdırılacağına ümid edən ABŞ xüsusən də İranın təkrarən keçirdiyi sınaqlar fonunda hadisələrin inkişafından narazı qaldı (Leyva, 2015).

Bununla əlaqədar olaraq, 2016-cı ilin martında Prezident Barak Obama Tehrana qarşı sanksiyaların daha bir il uzadılacağını elan etdi. Rəsmi mövqe bundan ibarət idi ki, "İran hökumətinin müəyyən hərəkətləri və qərarları ABŞ-ın bölgədəki maraqlarına ziddir və ABŞ-ın milli təhlükəsizliyi, xarici siyasəti və iqtisadiyyatı üçün qeyri-adi və fövqəadə təhlükə yaratmaqda davam edir" (2).

Sanksiyalardan sonrakı mərhələ bütövlükdə İranla beynəlxalq birliyin üzvləri arasında əlaqələrin qurulması, Tehranla Çin və Rusiya kimi ənənəvi tərəfdaşlar arasında əlaqələrin bərpası və möhkəmləndirilməsi ilə xarakterizə olunur. BAEA İİR-in nüvə proqramı ilə bağlı fəaliyyətinə, BHFP-nın nəzərdə tutduğu tədbirlərin icrasına nəzarəti davam etdirir. Agentliyin baş direktoru Yukiya Amanonun 29 fevral 2016-cı il tarixli hesabatında İranın şəffaflıq rejiminin təmin edilməsi və BHFP-nın müddəalarına riayət edilməsi sahəsində BAEA ilə hərtərəfli əməkdaşlıq edərək, müəyyən edilmiş plana uyğun hərəkət etdiyi qeyd olunurdu (19).

Tərəflərin BHFP ilə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üzrə sonrakı əməkdaşlığı İcra Planına uyğun olaraq davam etdi (7). Dördüncü mərhələ - "İcra Günü"ndən 8 il sonra başlayacaq "Keçid Günü"ndə (18 oktyabr 2023-cü il) və ya BAEA-nın "İrandakı bütün nüvə materialının dinc fəaliyyətdə qalması" barədə məlumatı ehtiva edən geniş rəyinin təqdim ediləcəyi tarixdə başlanmalıdır.

BHFP-nın icrasının İrana qarşı sanksiyaların hərtərəfli ləğv edilməsini nəzərdə tutan sonuncu mərhələsi "Qəbul günü"ndən 10 il sonra gələcək "BMT Təhlükəsizlik Şurasının qətnaməsinin bitməsi günü" (18 oktyabr 2025-ci il) başlayacaq. Eyni zamanda, İcra Planının mətnində göstərildiyi kimi, İranın nüvə proqramı ilə bağlı BHFP üzrə öhdəliklər qüvvədə qalacaq.

Beləliklə, 2015-ci ildə razılaşma ərəfəsində nüvə böhranı ətrafında vəziyyət buna təkan verən subyektiv və obyektiv ilkin şərtlərin mövcudluğu ilə xarakterizə edilirdi:

1. İranda islahatçı düşüncəli prezident H.Ruhaninin ölkədəki çətin daxili iqtisadi vəziyyətlə əlaqədar nüvə probleminin həlli şüarları ilə hakimiyyətə gəlməsi (10).
2. Çinlə yanaşı, danışıqlar prosesində iştirak edən Avropa ölkələrinin də İranla iqtisadi əməkdaşlıqda və sanksiyaların ləğvində maraqlı olması.
3. Rusiya və ABŞ-ın bölgədəki mövqelərini gücləndirməkdə maraqlı olması.
4. Bölgənin geosiyasi mənzərəsinin dəyişməsi, terror qruplaşmalarının fəallaşması şəraitində İranın rolunun əhəmiyyətinin artması.

## Nəticə

BHFP-nin imzalanması və razılaşmada nəzərdə tutulmuş addımların həyata keçirilməsi ilə beynəlxalq sanksiyalar və AB sanksiyaları qismən ləğv olundu; ABŞ tərəfindən qeyri-amerikalı rezidentlərin fəaliyyətinə təsir edən sanksiyalar rejimi zəifədildi, eyni zamanda amerikalı fiziki və hüquqi şəxslərin fəaliyyəti ilə bağlı sanksiyalar uzadıldı. Bütövlükdə hazırkı mərhələ qəbul edilmiş planın əsas müddəalarının icrasında müsbət dinamika ilə əlamətdardır.

## Ədəbiyyat


1. GOV/2016/8 / IAEA. 29.02.16. URL: https:// www. iaea. org/ sites/ default/ files/gov2016_8_rus.pdf
2. Baev, P.K. (2015). The China factor in Russian support for the Iran deal / Brookings. July 21. URL: http://www.brookings.edu/blogs/order-from-chaos/posts/2015/07/21-china-russia-support-for-iran-deal-baev
3. Sovmestnyy vseob"yemlyushchiy plan deystviy. https://documents-dds-ny. un.org/doc/UNDOC/GEN/N15/225/51/PDF/N1522551.pdf?OpenElement
4. Top importers of Iranian crude oil. (2012). Reuters. February 6. URL: http://www.reuters.com/article/iran-oil-buyers-idAFL3E8C529I20120206
5. Arbatov, A., Sazhin, V. (2015). Yadernoye soglasheniye s Iranom: final ili novyy etap? Moskovskiy tsentr Karnegi. 4 dekabrya. URL: http://carnegie.ru/2015/12/04/ru-62179/imoe
6. Bochinin, A. SSHA prodlili sanktsii protiv Irana TASS. 9.03.2016. URL: http://tass.ru/mezhdunarodnaya-panorama/2726060
7. Gurova, M. (2015). Iranskaya yadernaya vekha (interv'yu s Khlopkovym A.) Rossiyskiy sovet po mezhdunarodnym delam. 15.07.15. URL: http://russiancouncil.ru/inner/?id_4=6341#top-content
8. Demidenko, S. (2015). Iran – «shesterka»: poka voz i nyne tam, no vot nadolgo li? / Rossiyskiy sovet po mezhdunarodnym delam. 25.02.15. URL: http://russiancouncil.ru/inner/?id_4=5338#top-content
9. Leyva, M. (2015). Iran provel ispytaniye ballisticheskoy rakety v narusheniye rezolyutsiy OON. RBK. 8.12.2015. – URL: http://www.rbc.ru/politics/08/12/2015/566666309a79470d2d2fbd37;
10. Otvet ofitsial'nogo predstavitelya MID Rossii M.V.Zakharovoy na vopros agentstva TASS otnositel'no nevernykh interpretatsiy rezolyutsii Soveta Bezopasnosti OON 2231. Ofitsial'nyy sayt MID RF. 20.02.16. URL: http://www.mid.ru/maps/ir/-/asset_publisher/HUPBmpXjn4Ob/content/id/2105425
11. Plan realizatsii SVPD. Sayt OON. S.115 URL: https://documents-dds-ny. un. org/ doc/ UNDOC/ GEN/ N15/ 225/ 51/ PDF/ N1522551. pdf?OpenElement
12. Prezident Irana prikazal rasshirit' raketnuyu programmu / RIA Novosti. 31.12.15. – URL: http://ria.ru/world/20151231/1352429326.html
13. Rezolyutsiya SB OON №2231 (2015) - http://www.un.org/ru/sc/2231/
14. Sazhin, V.I. 2014 god perelomnyy dlya Irana? – URL: http://russiancouncil.ru/inner/?id_4=4682#top-content
15. Sazhin, V.I. 2014 god perelomnyy dlya Irana? / Rossiyskiy sovet po mezhdunarodnym delam. 28.10.15. – URL: http:// russiancouncil.ru/ inner/?id_4=4682#top-content
16. Soglasheniye po iranskoy yadernoy programme ofitsial'no vstupayet v silu / TASS. 18 oktyabrya 2015. - URL:http://tass.ru/mezhdunarodnaya-panorama/2356369
17. Feynberg A. Iran provel novyye ispytaniya ballisticheskikh raket posle kritiki SSHA / RBK. 9.03.2016.URL: http://www.rbc.ru/politics/09/03/2016/56dfcfb69a79471ed2cdbc5a
18. Annual Statistical Bulletin. (2015).
19. GDP at market prices. World Bank – URL: http://data.worldbank.org/indicator/ NY.GDP.MKTP.CD/countries/IR?display=graph
20. IAEA Director General’s Statement on Iran. IAEA site. URL: https://www.iaea.org/newscenter/news/iaea-director-general%E2%80%99s-statement-iran

21. Kozhanov, N. (2012). Russia's Position on Iran's Nuclear Program. The Washington Institute. April 19. URL: http://www.washingtoninstitute.org/policy-analysis/view/russias-position-on-irans-nuclear-program
22. Lee, C., Solomon, J. (2014). Obama Wrote Secret Letter to Iran's Khamenei About Fighting Islamic State. The Wall Street Journal. Nov. 6. URL: http://www.wsj.com/articles/obama-wrote-secret-letter-to-irans-khamenei-about-fighting-islamic-state-1415295291
23. Many US sanctions on Iran remain in effect despite ban lift / STEP. 21 January, 2016. – URL: http://www.step.org/news/many-us-sanctions-iran-remain-effect-despite-ban-lift
24. Russian Approaches Towards the Iranian Nuclear Programme. The Embassy of the Russian Federation to the United Kingdom of Great Britain and Northern Ireland – URL: http://www.rusemb.org.uk/in4b/
25. Significant Changes to U.S. and E.U. Sanctions Against Iran/Ropes&Gray. January 26, 2016. URL: https://www.ropesgray.com/newsroom/alerts/2016/January/Significant-Changes-to-US-and-EU-Sanctions-Against-Iran.aspx
26. Significant relief of sanctions against Iran, but certain restrictions remain. De Brauw Blackstone Westbroek. 19.01.2016. URL: http://www.debrauw.com/alert/significant-relief-sanctions-iran-certain-restrictions-remain/

Göndərilib: 10.02.2024 Qəbul edilib: 18.04.2024